*Nəriman Nərimanov irsinə diqqət*

# Ciddi axtarışın sorağında

**Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda milli mənəvi sərvətimiz olan qədim əlyazmalar və nadir əski çap kitabları ilə yanaşı, görkəmli alim, şair və ədiblərin şəxsi fondları da mühafizə edilir. Onların içərisində dövlət xadimi, yazıçı və publisist N.Nərimanovun şəxsi fondu xüsusi maraq doğurur. Bu sənədlər N.Nərimanovun ədəbi, ictimai-siyasi fəaliyyətinin müəyyən istiqamətlərini öyrənmək baxımından çox qiymətlidir.**




İş prosesində şəxsi fondların təsvir prinsipi əsas götürülmüş və materiallar iki hissəyə ayrılmışdır: N.Nərimanovun şəxsən özünə aid olan arxiv sənədləri, həyat yoldaşı Gülsüm xanım Nərimanovanın fəaliyyəti ilə bağlı sənədlərin təsviri verilmişdir.

Burada ilk növbədə N.Nərimanovun avtoqraf əlyazmalarından “Pir” əsərinin, “Bahadır və Sona” faciəsindən bir şəklin rusca tərcüməsi və oğlu Nəcəfə və b. həsr etdiyi şeirlərinin təsviri öz əksini tapır.

N.Nərimanovun əksər bədii əsərlərinin avtoqraf nüsxələri əldə edilməmişdir. Şəxsi fondda onun əsərlərinin yalnız ilk çap nüsxələri mövcuddur ki, onların da təsviri verilmişdir.

“Xatirələr” bölməsində N.Nərimanovun avtoqrafı və 1922-ci ildə İtaliyanın Genuya şəhərində çağırılan Beynəlxalq Sülh Konfransında olduğu zaman yazdığı qeydlərin təsviri verilmişdir. Bu təsvirlərin makina çapı da arxivdə saxlanılır.

Gülsüm xanım Nərimanovanın xatirələri ayrı bölməyə salınmışdır.

N.Nərimanovun şəxsi fondunda cari məsələlərə dair qeydlər də mühafizə edilir ki, bunlardan yalnız ikisi avtoqrafdır.

N.Nərimanovun ictimai-siyasi fəaliyyəti ilə əlaqədar söylədiyi nitqlər, məruzələr, çıxışların bir hissəsi avtoqraf, qalanları isə makina və mətbəə çapıdır.

Adətən görkəmli ictimai xadimlərin şəxsi arxivində çoxlu məktublar olur. Təəssüflər olsun ki, N.Nərimanovun Əlyazmalar İnstitutunda saxlanılan arxivində onun əli ilə yazılmış cəmi 4 məktubu vardır. Burada dəvətnamələr və teleqramlar çox azdır.

N.Nərimanovun şəxsiyyətinə aid sənədlərdən gündəlik, vəsiqə, xəstələrə yazdığı diaqnozlar, anketlər, pasport, fəxri fərman, resept bloknotu, mandat, məramnamə və s. qeyd etmək olar.

Bunlardan əlavə, ədibin şəxsi arxivində müxtəlif məzmunlu materiallar və çıxarışların təsviri də öz əksini tapır.

Şəxsi fondda mühafizə olunan 50-ə yaxın fotoşəkil maraq doğurur. Onlar müxtəlif illərdə və müxtəlif şəraitdə çəkilmişdir. Bu şəkillərdə N.Nərimanov tək, ailə üzvləri, kəndlilər, süvarilər və başqa şəxslərlə birlikdədir.

Gülsüm xanımın tərcümeyi-halı, oğlu Nəcəf haqqında yazdığı xatirələri, oğlu Nəcəfin cəbhə yoldaşlarının, başqa şəxslərin ona məktubları və onun cavab məktublarının surəti, şəxsiyyətinə aid sənədlər, teleqramlar, təliqələr, fotoşəkillər və b. sənədləri də ayrı-ayrılıqda təsvir olunmuşdur.

N.Nərimanovun şəxsi fondu aşağıdakı prinsip əsasında tərtib olunmuşdur:

1) Fondda olan materiallar mövzu və ədəbi janrlara görə qruplaşdırılaraq bir-birinin ardınca təsvir edilmişdir.

2) Fondda olan bütün məqalələr, məruzələr, çıxışlar əlifba sırası ilə verilmiş, müxtəlif dövrlərdə yazılmış eyni məzmunlu sənədlər isə tarixinə görə təsvirə daxil edilmişdir.

3) N.Nərimanovun şəxsiyyətinə aid olan sənədlər əlifba sırası ilə və daxili xronologiyaya riayət etməklə bir-birinin ardınca düzülmüşdür.

4) Arxivin təsvirində materialın yazılış tarixi, yazıldığı yer, kağızının növü, mürəkkəbin rəngi, avtoqraf olub-olmaması, vəziyyəti, “başlanır-bitir”i, qısa məzmunu, ölçüsü, həcmi, saxlama vahidi eyni bir qayda əsasında göstərilmişdir.

N.Nərimanovun şəxsi arxivi işlənərkən fotolara müəyyən bir prinsiplə tərtib olunmadan saxlama vahidləri verilmişdir. Təsvir zamanı həmin prinsipsizlik özünü göstərir.

Qeyd etdiyimiz kimi təsvir kitabının II hissəsi Nərimanovun həyat yoldaşı Gülsüm xanıma aiddir.

Gülsüm xanım Nərimanovaya aid olan sənədlər Azərbaycan qadınlarının ölkənin siyasi-ictimai həyatındakı fəal iştirakını öyrənmək baxımından zəngin qaynaqlardır. Ömrünün şirini az, acısı çox olan anlarını, dəqiqə, saat, gün və aylarını bu materiallar arasında bükub saxlamış, gizləmiş Gülsüm xanım bizə nələr söyləmir, nələr danışmır?! Bu ağzı açılmamış sandıqçada Gülsümün uşaqlığı ilə gəncliyi, gəlinliyi, ərli və ərsiz, övladlı və övladsız dünyası, ağrılı-acılı, kimsəsiz, yoxsul və xəstə cismi ağlayıb-sızlayır. Gülsümün gündəliyi, xatirələri, həsrəti məktubları, insan qəlbini ağladan ərizələri, şəxsiyyətinə aid sənədləri, bəxtəvər və bədbəxt günlərinin yadigarı fotoşəkilləri, məruzə və radio vasitəsilə olan çıxışları, teleqramları göz yaşlarısız oxumaq mümkün deyil.

Bu qadın 17 yaşından başlayaraq həyat yoldaşı N.Nərimanovun seçdiyi yolun, açdığı cığırın yolçusu olmuşdur. Bütün həyatını N.Nərimanovun rəhbərliyi altında gizli əməliyyatlara başlayan Gülsüm qeyri-leqal vərəqələr yayır, müsəlman qadınlarının ağır vəziyyətini, cansıxıcı həyatını heç olmasa bir qədər dəyişdirmək naminə təbliğat işləri aparırdı.

Gülsüm xanımı düşündürən, ürəyini göynədən bir məsələ onu ölənədək tərk etməmişdir. O, öz bircə balasını necə xoşbəxt görmək istəmişsə, yetim, ata-anasız uşaqlara, nankor övladları tərəfindən unudulmuş qocalara əlindən gəldiyi qədər kömək etmişdir. O, çox çalışıb-vuruşmuş, aidiyyəti təşkilatlarla möhkəm əlaqə saxlayıb, Bakıda ilk şikəstlər evi, yetimxanalar və uşaq bağçaları açdırmışdır. G.Nərimanovanın elə bir çətin dövrdəki fəaliyyəti təkcə bununla məhdudlaşmamışdır. O, şəxsən Leninlə görüşmüş, bir neçə dəqiqə söhbət etməyə nail olmuşdur. Görüşdə məqsədi nə idi? Yenə uşaqların taleyi, onların yaşayışlarına kömək etmək.

Gülsüm xanım xatirələrindən birində yazır: “V.İ.Leninin bu məsələyə qayğı və diqqətlə yanaşmasını heç vaxt unutmayacağam”. Lakin yaratdığı yetimxanalar, uşaq bağçaları, əlillər evində təşkilati işləri aparmaq üçün kadrlar yox idi. Gülsüm xanım bu qərara gəlir ki, ilk olaraq özü oxusun, öyrənsin və xalqının bu köməksiz insanlarına öz elmi, biliyi ilə yardım etsin. Məhz buna görə bir müddət evdə savadlanmaq qərarına gəlir. Öz-özünə çalışır, Nərimanovdan öyrənir. Sonra müsəlman qızlarının frebel kurslarına daxil olur. Bu məktəbi qurtarandan sonra o yalnız məktəbəqədər uşaqlarla məşğul ola bilərdi. Lakin bu, Gülsüm xanımı qane etmir. O, ölkədə yaranmış həyatla ayaqlaşmaq məqsədi ilə 1926-cı ildə Moskva Pokrovski adına fəhlə fakültəsində, daha sonra Timiryazev adına Qaragül qoyunçuluq İnstitutunda oxuyur. Sonuncuda oxuyan zaman onu Özbəkistana ot yığımına göndərirlər. Gülsüm orada silos hazırlayan və ot yığan fəhlə işləyir. Fəhlələrlə birlikdə silos üçün xəndəklər qazır. Qadın üçün bu azmış kimi, hələ ziyankar adamların qəsdən tarlaları yandırıb xalqın malını tələf etdiyi, fəhlə yoldaşlarını öldürdükləri zaman, o, gecələri yatmayıb, at belində ot tarlalarına gözətçilik edir.

İnstitutu bitirdikdən sonra Gülsüm xanım Özbəkistanda “Mübarək” sovxozuna işləməyə göndərilir. Gülsüm xanım bu zaman müxtəlif hadisələrlə qarşılaşır. Bu yorucu həyat onun tezliklə əsəb sistemini pozur və Moskvaya qayıdır, yenə yetim uşaqların qayğısı ilə məşğul olur. O, uşaq bağçalarına gedib, əlindən gələn köməkliyi əsirgəmir.

İkinci Dünya müharibəsi başlananda Gülsüm xanım Lvovda olan Qızıl Ordu komitəsinin fəal işçisinə çevrilir. O, bu işə də məhz uşaqlara kömək etmək, onlara qayğı göstərmək məqsədi ilə başlamışdır. Fəaliyyəti radio vasitəsilə xarici ölkələrə də çatan bu fədakar insanın bəxtinə daha hansı paylar düşür?

Hospitallarda, oğlu Nəcəfi xatırladan əsgərlərə mədəni xidmət etmək, tədbirlər keçirmək. “Ətrafımda üzügülər əsgərləri görəndə özümü xoşbəxt hiss edirəm” - deyən ana yeganə balasını - Nəriman Nərimanovun yadigarı Nəcəfi də alman-faşist işğalçılarının süngüsünün qabağına göndərmişdi. Artıq üç il idi ki, Nəcəflə yalnız məktub vasitəsilə görüşübdərdləşən ananın fondumuzda saxlanılan məktub və xatirələrini oxuyan hər kəs uzun müddət onun təsirindən ayrıla bilmir.

Sənədlər göstərir ki, hospitaldakı yaralılara öz balası kimi qulluq edən Gülsüm xanım davanın qızğın yerində vətəni müdafiə edən Nəcəfin xəyalından bir an olsun belə ayrılmır.

Zəmanənin yükündən yorulmuş tənha Gülsümə yeni və dözülməsi mümkün olmayan daha ağır bir yük əlavə olunur. Oğlu Nəcəfə yazdığı “Nəcəf, sən Nəriman Nərimanovun oğlusan, bilirəm ki, bunu heç vaxt unutmayacaqsan, sənin qismətinə Vətəni faşist rəzillərindən qorumaq kimi şərəfli bir vəzifə düşdü. Onların törətdiklərinə qarşı nifrət və qəzəbimi ifadə edə bilən söz tapa bilmirəm. Bu yırtıcılar bizim xoşbəxt həyatımızı pozdular... Lakin əminəm ki, səninlə görüşəcəyəm, biz xoşbəxt yaşayacağıq” - məzmunlu məktubu yollarda qaldı. Oğul ananın ümidlərlə dolu qəlbini viran etdi. Gülsüm balası Nəcəflə görüşə bilmədi. “Ana, mən də sənin üçün darıxıram və inanıram ki, tezliklə arzularımız yerinə yetəcəkdir, tezliklə bu yırtıcı avaraları qırıb, sakitcə, xoşbəxtcə yaşayacağıq” - deyə, Nəcəfin yazdığı son məktubunu ana onun ölümündən sonra alacaq.

Qəddi bükülmüş tənha qadının ayaqları onu yalnız yetimxanalara çəkirdi. Moskva, Volnovax və Bakıdakı uşaq evlərini hamiliyə götürüb, onları təchiz edir, körpələrə, balaca uşaqlara analıq qayğısını daha da artırırdı. Gülsüm xanımın adına gələn məktub və teleqramlarda bu barədə çoxlu sözlər deyilir, onun nəcib əməli bu məktublarda öz parlaq əksini tapır.

Gülsüm xanım 55 yaşında ikən, 21.12.1953-cü ildə Moskva şəhərində vəfat etmişdir.

Ömrünü - gəncliyini, gəlinliyini, analığını xalqına, Kommunist Partiyasına həsr etmiş Gülsüm xanımın xatirəsini əbədiləşdirmək üçün Sovet dövləti demək olar ki, heç nə etməmişdir.

**Mehri MƏMMƏDOVA,**
**filologiya üzrə fəlsəfə doktoru.**